# Pandemiyaya qalib gəlməyimiz vətəndaş məsuliyyətindən asılıdır

***Nazirlər Kabineti yanında operativ qərargahın brifinqində iyunun 21-dən iyulun 5-nə kimi ciddi karantin rejiminin tətbiq olunduğu bildirildi. Qərargahın məsul şəxsləri tərəfindən karantin rejiminin qaydaları açıqlandı, ictimaiyyəti maraqlandıran suallara aydınlıq gətirildi və vətəndaşlara virusa qarşı mübarizə günlərində yenə də tövsiyələr verildi. Daha dəqiq ifadə etsək, bəzi məsuliyyətsiz vətəndaşlara görə 2 həftəlik ciddi karantin rejiminə keçildi.***

***Biz sizin fədakarlığınızın, səxavətinizin və qəhrəmanlığınızın şahidi olduq. Siz öz doğma və yaxınlarınızdan uzaqda həyatınızı riskə ataraq xəstəliyi yenməyə kömək edir, həyatları xilas edir, insanlara inam və ümid bəxş edirsiniz. Sizin gündəlik zəhmətiniz, peşə borcunuza sadiqliyiniz, pasiyentlərə xoş münasibətiniz, şəfqət və mərhəmətiniz ən yüksək qiymətə layiqdir! Sizin hər birinizə hünər, dözüm və ən əsası cansağlığı arzulayıram!***

**Mehriban ƏLİYEVA**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

Nə yaxşı ki, onların sayı çox deyil. Bu, operativ qərargahın biz insanların səhlənkar davranışlarının nəticəsində qəbul edə biləcəyi zəruri olan qərardır. Çünki, bəzi insanlar nə xəstəliyi, nə qorunmanı, nə də kimdənsə yoluxa bilmə və ya kiməsə yoluxdurma ehtimalını düşünmürlər. Bizə məhz sərt qadağa lazımdır. Əks halda yoluxmalar həndəsi silsilə ilə artacaq. Necə ki, artır. İyunun 21-də yoluxma sayı 471 oldu. Bu, gündəlik yoluxanların sayıdır. Nə demək olduğunun fərqində belə deyilsiniz. Hər gün itkilər... hər gün bir neçə evə qara xəbər... bunumu istəyirsiniz? Düşünmürsünüzmü ki, virus hər kəsin qapısının ağzında dayanıb ona içəri keçməyə yol verəni gözləyir? Çünki hələ də bu xəstəliyin ciddiliyini başa düşməyən, evdə özünü kortəbii müalicə edən, xəstəliyi gizlədən, belə xəstəlik yoxdur deyən vətəndaşlarımız var. Bunun özü məsuliyyətsizlik, laqeydlik, biganəlik göstərən bəzi vətəndaşlarımıza nəsə demirmi? Tibbi maskalardan və digər qoruyucu vasitələrdən istifadə etmək, sosial məsafəni gözləmək, karantin şərtlərinə və tələblərinə əməl etmək bu qədərmi çətindir?

Dövlət bundan artıq nə etsin? Pandemiya başlayandan bütün dünyada olduğu kimi, ölkəmizdə də koronavirusun yaratdığı təhlükəyə qarşı hərtərəfli mübarizə aparılır. Profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi üçün Prezidentin sərəncamı ilə yaradılan Nazirlər Kabineti yanında operativ qərargah “Sanitariya-epidemioloji salamatlıq haqqında” Qanuna uyğun olaraq, martın 24-dən Azərbaycanda xüsusi karantin rejimi elan etdi. Dövlət başçısı tərəfindən pandemiyanın mənfi nəticələrinin azaldılması üçün bir sıra tədbirlər haqqında fərman imzalandı. Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. Qısa müddət ərzində 20-dən çox xəstəxana koronavirus xəstələrinin müalicəsi üçün ayrıldı. Laboratoriya müayinələri, virusun diaqnozu və müalicəsi üçün lazım olan bəzi tibbi avadanlıq və ləvazimatlar Azərbaycana gətirildi. Maska və kombinezon istehsal edən müəssisələr işə salındı. Bundan əlavə, bu dövrdə “Yeni klinika” tibb müəssisəsi və modul tipli 4 xəstəxana kompleksləri istifadəyə verildi.

Azərbaycan koronavirusla mübarizə üçün ÜST-ə 5 milyon ABŞ dolları və Qoşulmama Hərəkatının üzv ölkələrindən ən çox yardıma ehtiyacı olan ölkələrə dəstək vermək üçün əlavə 5 milyon ABŞ dolları verdi. Dövlət başçısı, müxtəlif qurumlar və ayrı-ayrı səlahiyyətli mütəxəssislər tərəfindən vətəndaşlara edilən müraciətlərdə mütləq olaraq sanitar-epidemioloji və gigiyenik qaydalara riayət edilməsi əsas tələb kimi qarşıya qoyuldu. Buna görə də hökumətin pandemiyanın ilk günlərindən qəbul etdiyi qərarlar və karantin rejiminin tətbiqi nəticəsində vəziyyəti nəzarət altında saxlamaq mümkün oldu. Görülmüş tədbirlər müsbət nəticələr verdiyindən, yəni gündəlik məlumatlara əsasən, sağalanların sayı yoluxanlardan çox olduğuna görə, aprelin 27-dən etibarən mərhələli şəkildə yumşaldılma tədbirlərinə başlandı. Ancaq sərt karantin rejiminin yumşaldılmasından sonrakı dövrdə insanların çoxu operativ qərargahın tələblərinə əməl etmədi, ictimai nəqliyyatda, qapalı məkanlarda tibbi maska taxmadı, sosial məsafəni gözləmədi. Buna görə də iyunun 3-də ölkədə yüksək yoluxma həddi – 325 nəfər qeydə alınan kimi, vəziyyətin kritik olduğunu görən hökumət başçısı iyunun 4-də əhaliyə müraciət edərək, sərt karantin rejiminin tətbiq olunacağını bildirdi.




Sonrakı həftə yoluxma sayını nəzərə alaraq, artıq həftə sonlarında küçəyə çıxmağın, ictimai və fərdi nəqliyyat vasitələrinin hərəkətinin qadağan edilməsinin bir zərurət olduğunu qəbul etdik. Çünki son günlər yoluxan və sağalan insanlar arasında fərqin kəskin artmasının şahidi olduq. Ardıcıl olaraq yoluxma sayı sonrakı günlərdə artaraq, iyunun 6-da 379-a qalxdı. Bu isə onu göstərdi ki, vətəndaşların əksəriyyətinin son zamanlar karantin rejiminin tələblərinə ciddi əməl etməməsinə görə yoluxanların sayı yenə artacaq. Məhz ona görə də karantin rejiminin yenidən sərtləşdirilməsi barədə iki gün öncədən təkliflər hazırlandı. Operativ qərargahın brifinqində karantin rejiminin yenidən sərtləşdirilməsi ilə bağlı deyilənlər də məhz bu laqeydliyin nəticəsi idi.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan Nümayəndəliyinin rəhbəri Hande Harmancının fikrincə, ölkəmizdə iki həftə əvvəl qeydə alınan mənfi tendensiya qaydaların sərtləşdirilməsini zəruri etdi. O, tətbiq olunan sərt karantin qaydalarının 10--14 gün ərzində yoluxma sayında azalmaya səbəb olacağına ümid etdiyini bildirdi.

Qeyd edək ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq görülən işlər, əldə edilən uğurlar Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilib, Azərbaycan nümunəvi ölkə kimi qeyd olunub. Dövlət üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib və bu gün də yerinə yetirməkdədir. Bundan sonrakı mərhələdə əsas həlledici amil vətəndaş məsuliyyəti idi. Buna görə də insanlar məsuliyyətini dərk etməli və TƏBİB-in metodiki göstərişlərini maksimum yerinə yetirməyə çalışmalıdırlar. Çünki cəmiyyətin uzun müddət sərt karantin rejimində yaşaması mümkün deyil. Dəfələrlə deyilib ki, bu sadə tələblərə riayət etmək, ictimai nəqliyyatda, qapalı məkanlarda tibbi maska taxmaq, sosial məsafəni gözləmək bu virusdan qorunmağın ən asan və rahat yoludur. Ancaq xüsusən, sərt karantin rejiminin yumşaldılması ilə bağlı son qərardan sonra, təəssüf ki, maska taxılmaması, sosial məsafənin gözlənilməməsi meyilləri artdı.

Buna görə də Nazirlər Kabineti yanında operativ qərargahın tibbi bölməsinin həftə sonları COVID–19-a daha çox yoluxmanın qeydə alındığı Bakı, Sumqayıt, Gəncə, Lənkəran və Abşeronda küçəyə çıxmanın məhdudlaşdırılması təklifi zəruri oldu. Ölkəmizdə izolyasiya tədbirləri sırasında qardaş Türkiyənin təcrübəsindən istifadə olundu. Virusun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə xüsusi karantin rejimi müəyyən günlərdə sərtləşdirildi. Qeyd etməliyik ki, pandemiya başlayan gündən vətəndaşlara virusdan qorunma yolları ilə bağlı yetərincə izahat və tövsiyələr verilib, tələblərə əməl etməyin zəruriliyi açıqlanıb. Buna baxmayaraq, bəzi vətəndaşlarımız yenə də qoyulan qaydalara, karantin tələblərinə laqeydlik, biganəlik göstərdilər. Xüsusilə, həftəsonu tətbiq edilən sərt rejimlə bağlı həftənin beşinci günündən rayonlara, istirahət bölgələrinə başlanan yolçuluq insanların xəstəliyə necə biganə yanaşdıqlarının təsdiqi idi. Səfərə çıxanlar öz yersiz yolçuluqları ilə həm özlərinin, həm yaxınlarının, həm də o bölgələrdəki insanların həyatını böyük risk və təhlükə altında qoymuş oldular. Qəbul edilən qayda-qanun hamı üçün eynidir. Kimsə özünü bu qanun-qayda–tələblər çərçivəsində imtiyazlı, yaxud üstün hesab edə bilməz.

Karantin tədbirlərinin yumşaldılması ilə dövlət öz vətəndaşlarının şəxsi məsuliyyətinə etibar etdi. Lakin bəzi insanlar bunu doğru-dürüst anlaya bilmədilər. Sərt rejimin yumşaldılması məsuliyyətsiz davranmağımıza əsas vermir. Qaydaların yenidən sərtləşdirilməsinə və cəza sanksiyalarının tətbiq olunmasına ehtiyac zərurətdən yarandı. İnsanlardan tələb olunan budur ki, hər bir kəsi, ən doğması olsa belə, potensial xəstə kimi qəbul edərək qorunsun. Fədakar həkimlərimiz aylardır ailələrinə həsrət qalırlar, gecə - gündüz işləyirlər, saatlarla xüsusi geyimdə olurlar. Yay fəslində xüsusi geyimdə çətin olsa da, yorulmadan çalışır, COVID – 19- la mübarizə aparırlar. Bəs biz, 2 gün evdə qalmaq istəməyən vətəndaşlar dövlətimizə və həkimlərimizə necə kömək edirik? Soyuq reanimasiyada süni tənəffüs aparatına qoşulan xəstələrin necə əziyyət çəkdiklərindən, həkimlərin, tibb bacılarının onları həyata qaytarmaq üçün necə əzmlə çalışdıqlarından, nə qədər stress keçirdiklərindən xəbəriniz varmı? Dövlətimizə və həkimlərimizə dəstək lazımdır!

Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva instaqram səhifəsində etdiyi paylaşımda 17 iyun Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə fədakar həkimləri səmimi-qəlbdən təbrik edib. Bütün vətəndaşların tibb işçilərinə sonsuz təşəkkür və səmimi minnətdarlıq etmək istədiyinə əminliyini bildirib. Koronavirus pandemiyası ilə mübarizədə əsas yükün onların üzərinə düşdüyünü qeyd edərək, tibb işçilərinin peşəkarlığının, fədakarlığının, səxavətinin və qəhrəmanlığının şahidi olduğunu vurğulayıb, hər birinə hünər, dözüm və ən əsası cansağlığı arzulayıb. Biz vətəndaşların da dəstəyi o olsun ki, qanun - qaydalara ciddi əməl edək! Maska taxaq, aramızda məsafə gözləyək, gigiyenik təmizliyə riayət edək! Yəqin ki, çətin məsələ deyil, hətta yoluxub, xəstəxanada yatmaqdan qat-qat asandır! Cənab Prezident modul tipli xəstəxananın açılışında çıxış edərkən demişdir: “Çünki cəmi bu üç amil, - bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər, -- gərək nəzərə alınsın: tibbi maska, bir yarım--iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb”.

İş orasındadır ki, bizim çoxumuz sərt təpki görməsək, qayda-qanuna laqeyd oluruq. Hər kəs başa düşməlidir ki, taxacağı maska öncə özünü virusdan qoruyur. İkincisi, əgər səndə yoluxma varsa (bunu virusa aid əlamətlər büruzə verməyincə və testdən keçməyincə kimsə bilmir), digərlərini yoluxdurmaq ehtimalı azalır. Pandemiya başlayanda təbii olaraq heç bir ölkə bu bəlaya hazır olmadığından maska qıtlığı yaranmışdı. Bəziləri “maska yoxdur, nə taxaq? Dövlət hara baxır?” kimi absurd fikirlər səsləndirirdilər. Çox keçmədi ki, cənab Prezidentin tapşırığı ilə ölkədə maska və kombinezon istehsal edən müəssisələr işə salındı və bu problem aradan qalxdı. Sonra yoluxmaların artdığını görüb, Avropa ölkələrində nə zamandan bəri tətbiq olunan maskasız gəzənlərin cərimələnməsi cəzası tətbiq edildi. İndi bu maskasız gəzən, “virus boş şeydir” – deyib insanlar arasında “təbliğat” aparanlardan soruşmaq lazımdır? – Maska arzulayırdınız, niyə taxmırsınız? Cənab Prezident, Birinci vitse-prezident maska taxa bilir, siz yox? 30 qəpiklik maska və gigiyenik tələblərə əməl edərək, virusdan qorunmaq yaxşıdır, yoxsa, xəstəxanada həkimlərdən imdad diləmək?

Cənab Prezidentin bölgələrə səfərə gedəndə maskadan istifadə etməsi hər kəsə nümunə olmalı, hamı bu qoruyucu vasitədən istifadə etməlidir. Dövlət başçımız bu barədə demişdir: “Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir – ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Açıq havada bu, tövsiyə olunur, əgər yaxın təmas yoxdursa, maskadan istifadə etməmək də olar. Ancaq qapalı şəraitdə hər kəs mütləq maskadan istifadə etsin, hər kəs məsafə saxlasın və şəxsi gigiyenaya fikir versin”.

Ölkəmizdə koronavirus xəstələrini müalicə etmək üçün dövlət tərəfindən bütün vasitələrdən istifadə edilir. Nəinki xəstəxanalarda, hətta, karantində qalan vətəndaşlar üçün də dünya miqyasında ən yaxşı şərait Azərbaycanda yaradılıb. Onlar 4–5 ulduzlu otellərdə, eyni zamanda, Atletlər kəndində yerləşdirilirlər. Minlərlə insan xaricdən təxliyə edilib və bu proses davam etdirilir.

Gəlin, bu bəladan az itkilərlə çıxmaqda dövlətə dəstəyimizi göstərək--maska taxaq, məsafə saxlayaq və gigiyenik tələblərə əməl edək. İnanaq və inandıraq ki, hər şey biz vətəndaşlardan asılıdır. Çünki bir məsuliyyətsiz vətəndaş yüz nəfəri yoluxdura bilir, onların və özünün həyatını risk altına atır. Hamılıqla operativ qərargahın qayda və tələblərinə əməl edək, həm özümüzü, həm də cəmiyyəti qoruyaq.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***